# O, gələcəkdə tanınmış aktyor olacağına əmindir

2001-ci ildə Bakı şəhərində anadan olan Zeynalabdin Bağırzadə paytaxtdakı 238 nömrəli tam orta məktəbin VIII sinfində təhsil alır. Hələ kiçik yaşlarından çoxlu şeirlər əzbərləməyə, tapmaca və nağıllar öyrənməyə həvəs göstərib. Qeyri-adi istedad sahibi olan Zeynalabdin yaşıdlarından güclü yaddaşı, səlist danışığı, hazırcavablığı və çalışqanlığı ilə fərqlənir. Məktəbin nümunəvi şagirdi olan bu yeniyetmə riyaziyyat və ədəbiyyat fənlərinə daha çox maraq göstərir. Telekanalların müxtəlif uşaq verilişlərində iştirak edib. O, eyni zamanda idmanla da məşğul olur. Hələ 2010-cu ildə cüdo üzrə "Ruslan" İdman Sağlamlıq Mərkəzinin açıq birinciliyində 27 kiloqram çəki dərəcəsində III yeri tutub, diplom və medalla mükafatlandırılıb. Zeynalabdin vaxtının çoxunu Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin gənc aktyorlar dərnəyində keçirir. O, aktyor-



luq sənətinin sirlərini sevimli müəllimi Xanım İsmayılovadan öyrənir. Bütün uğurlarına da mərkəzdə imza atıb. Mərkəzin keçirdiyi tədbirlərdə fəal iştirak edərək diplom və fəxri fərmanlara layiq görülüb. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə məktəblilər arasında keçirilən "Sən elə bir zirvəsən" şeir müsabiqəsində II, 2015-ci ildə 18 oktyabr-Dövlət Müstəqilliyi Günü münasibətilə məktəblilər arasında "Müstəqilliyimiz əbədidir" mövzusunda keçirilən şeir müsabiqəsində I, "Mənim bayrağım" adlı şeir müsabiqəsində II yerləri tutaraq diplom və fəxri fərmanlarla mükafatlandırılıb. Müxtəlif tədbirlərdə dəfələrlə görkəmli şair və dramaturqların əsərlərindən parçalar söyləyib və kompozisiyalar nümayiş etdirərək tamaşaçı rəğbətini qazanıb.

Yüksək pafosla, özünəməxsus diksiya ilə şeir söyləmək qabiliyyətinə malik olan gənc istedad özünün dediyi kimi ruhuna yaxın olan şairlərin şeirlərini yadda saxlamağa çalışır və çoxlu mütaliə edir. Uğurlarına görə Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin gənc aktyorlar dərnəyinin rəhbəri Xanım İsmayılovaya minnətdarlığını bildirir və gələcəkdə daha da uca zirvələri fəth edəcəyinə inanır. Tanınmış aktyor olmaq üçün üzərində səylə çalışacağını deyir.